# Barselona Bəyannaməsi

Biz, aşağıda imza edənlər, dünyanın müxtəlif xalqlarının siyasi nümayəndələri kimi, hər bir kişi, qadın və uşağın xəstəlik tiraniyasından azad yaşaya bilməli olduğunu dərk edərək, BƏYAN EDİRİK Ki:

1. Vərəm bəşər tarixində hər hansı digər yoluxucu xəstəlikdən daha çox sayda insanı məhv etmişdir və əsasən əhalinin ən həssas qruplarına təsir edərək ildə 1.5 milyon insanın ölümünə səbəb olmaqda davam edir, və bu, qlobal siyasi prioritet olmalıdır.
2. Vərəmlə mübarizənin mövcud inkişaf tempi çox aşağıdır, belə ki, sözügedən xəstəlik bütün dünyada milyonlarla vətəndaşın sosial və iqtisadi rifahı üçün gələcək əsrlərdə bir təhlükə olaraq qalacaq, və bu xəstəliyə qarşı mübarizənin sürətləndirilməsi hamının maraqlarına uyğun bütün hökumətlər tərəfindən qəbul olunmalıdır.
3. Çoxsaylı-dərmanlara-davamlı vərəm (MDR-vərəm) bu xəstəliklə mübarizənin düzgün aparılması işində kollektiv uğursuzluğu göstərir, bu da öz növbəsində çox zaman xəstələrin üzərinə dözülməz müalicə yükü qoyur və milyonlarla insan həyatı bahasına xəstəliyə qarşı mübarizənin inkişafını ləngitmək qorxusu yaradır, və bu təcili tədbirlərin görülməsi üçün diqqət mərkəzində olmalıdır.
4. Vərəmin müalicəsi üçün mövcud olan dərmanlar mübarizə üçün uyğun deyil, vaksinlər və diaqnostikalar kafi deyil, və əczaçılıq məmulatlarının hazırlanması üzrə kommersiya sektoru vərəm xəstələrinə fayda vermir.
5. Vərəm xəstələrin üzərinə üçqat yük qoyur – xəstəliyin özünün səhhətə vurduğu məhvedici təsir, müalicənin çox ağır (dözülməz) yükü, və damğa və qorxu səbəbindən sosial cəhətdən tədric olunma. Və sözügedən problemlərin milli səhiyyə proqramları çərçivəsində həllinə kompleks yanaşma tətbiq olunmalıdır.
6. İİV və şəkər xəstəliyi kimi, vərəmlə əlaqədar olan infeksiyalar müalicə zamanı xəstələrin vəziyyətini ağırlaşdırır, yoluxmanın azaldılması üzrə səylərə mane olur, və vərəmdən ölənlərin və ona yoluxmaların sayını artırır, və səhiyyə sistemlərinə əsas əlaqədar infeksiyalar üzrə proqramlamlar inteqrasiya olunmalıdır.

Beləliklə biz ölkələrimizin hökumətlərini vərəmlə mübarizəyə lazımi xarici və daxili resursların cəlb olunması üçün uzunmüddətli tədbirlərin həyata keçirilməsinə çağırmaq məqsədilə əlimizdə olan bütün imkanlardan istifadə etməyi öhdəmizə götürürük, və bu xəstəliyin siyasi gündəlikdə prioritet məsələ olmalı olduğunu vurğulayırıq, o cümlədən:

7. Kimliyindən, yaşayış yerindən və ödəmə qabiliyyətlindən asılı olmayaraq hər bir xəstənin tez və dəqiq diaqnoz və yüksək keyfiyyətli müalicə almağa imkanı olmalı, və vərəmin diaqnostikası və müalicəsi heç bir halda xəstələrin və ya onların ailələrinin yoxsullaşması ilə nəticələnməməlidir.
8. Yeni müalicə üsullarının onlara ehtiyacı olan xəstələr üçün əlçatan və münasib qiymətə olmasını təmin etmək məqsədilə, səhiyyənin ehtiyaclarına əsaslanan, təcili lazım olan yeni dərmanların, diqnostika vasitələrinin və vaksinlərin hazırlanması üzrə cari işlərin sürətlənməsinə kömək edəcək bir tədqiqat və təkmilləşdirmə modelinin tətbiq olunmasına çağırırıq.
9. Vərəmin profilaktikası, aşkarlanması və müalicəsinin hər mərhələsində icmaların və vətəndaş cəmiyyəti təşkilatlarının cəlb olunmasına kömək etməklə, damğanın götürülməsi və epidemiyaya qarşı mübarizədə xəstələrin səsinin daha gür olmasını təmin etməklə xəstələrin və həssas qrupların nümayəndələrinin bu xəstəliyə qarşı cavab tədbirlərinin mərkəzində olmasını israr edirik.

BELƏLİKLƏ BİZ, yuxarıda qeyd olunanları nəzərə alaraq, ən yaxın nəsildə vərəm epidemiyasını aradan qaldırmaq məqsədilə vərəm emidemiyasına qarşı daha səmərəli cavab tədbiləri görülməsini tələb etmək üçün, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), UNİTAİD, Qlobal fond, STOP TB Tərəfdaşlığı, Vərəm və Ağ ciyər Xəstəlikləri üzrə Beynəlxalq Birliyi və UNAİDS kimi rəsmi təşkilatlarla və dünyadakı qeyri-hökumət təşkilatları ilə işləyən, siyasi və coğrafi sərhədləri aşan və ölkələrimiz daxilində və xaricdə tərəfdaşlıq yaradan yeni qlobal parlament assembleyasının qurulması RAZILIĞINA GƏLİRİK.